*Layihə*

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# STATİSTİK FƏALİYYƏT TƏSNİFATI

**BAKI – 2024**

## *STATİSTİK FƏALİYYƏT TƏSNİFATI*

# GİRİŞ

“Statistik Fəaliyyət Təsnifatı” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 2013-cü il 18 oktyabr tarixli 28/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Statistik Fəaliyyət Təsnifatı”nın (AZT047-2013) yenilənmiş redaksiyasıdır. “Statistik Fəaliyyət Təsnifatı” BMT-nin Avropa İqtisadi Komissiyasının “Classification of Statistical Activities (CSA version 2.0)” əsasında hazırlanmışdır. Təsnifatdan milli statistika sistemində həyata keçirilən fəaliyyətlərin və statistika sahələrinin təsnifləşdirilməsi üçün baza sənədi kimi istifadə oluna bilər. Təsnifatın məqsədi statistik fəaliyyət növləri (məlumatların toplanması, emalı, yayılması, potensialın inkişaf etdirilməsi, statistik fəaliyyətlər, işçi qrupları və s. kimi) haqqında məlumatları təsnif etməkdir. Təsnifatdan beynəlxalq və milli statistika təşkilatlarında həyata keçirilən fəaliyyətlərin təsnifləşdirilməsində istifadə olunur.

“Statistik Fəaliyyət Təsnifatı” analitik təsnifatdır və onun komponentləri bir-birini tamamilə istisna etmir. Bəzi hallarda, element bir neçə sahədə təsnif edilə bilər və istifadəçilər xüsusi ehtiyaclarına uyğun olaraq onu harada yerləşdirməyə qərar verə bilərlər. “Statistik Fəaliyyət Təsnifatı”nın təsnifləşdirmə obyekti statistikanın sahələri hesab edilir.

## TƏSNİFATIN STRUKTURU

Təsnifat iyerarxikdir və üç səviyyədən ibarətdir. Birinci səviyyə 7 sahədən ibarət olmaqla, statistik fəaliyyətin geniş növü ilə əlaqədardır. İkinci səviyyə 65 qrupdan ibarət olmaqla bu sahələr çərçivəsində “fəaliyyət növlərini” xarakterizə edir. Üçüncü səviyyə 33 altqrupdan ibarət olmaqla özündə sahələrin daha təfərrüatlı bölgüsünü əhatə edir.

## STATİSTİK FƏALİYYƏT TƏSNİFATI (VERSİYA 2)

### Sahə 1 – Demoqrafiya və sosial statistika

| | |
|---|---|
| 101 | Əhali |
| 102 | Miqrasiya |
| 103 | Əmək |
| 104 | Təhsil |
| 105 | Səhiyyə |
| 106 | Gəlirlər və istehlak |
| 107 | Sosial müdafiə |
| 108 | Yaşayış məntəqələri və yaşayış yerləri |
| 109 | Mədəniyyət |
| 110 | Vaxtdan istifadə |
| 199 | Başqa sahələrdə təsnifləşdirilməyən demoqrafiya və sosial statistika |

### Sahə 2 – İqtisadi statistika

| | | |
|---|---|---|
| 201 | Makroiqtisadi hesablar və makroiqtisadi statistika | |
| | 20101 | Milli Hesablar Sistemi |
| | 20102 | Tədiyə balansı və beynəlxalq investisiya mövqeyi |
| | 20103 | Dövlət maliyyə statistikası |
| | 20104 | Pul və maliyyə statistikası |
| | 20105 | Ekoloji-iqtisadi uçot sistemi |
| | 20199 | Başqa sahələrdə təsnifləşdirilməyən makroiqtisadi hesablar və makroiqtisadi statistika |
| 202 | Müəssisələr statistikası (Biznes statistikası) | |
| | 20201 | Qısamüddətli müəssisələr (biznes) statistikası |
| | 20202 | Struktur biznes statistikası |
| | 20203 | Biznes demoqrafiyası və biznes dinamikası |
| | 20204 | Sahibkarlıq |
| | 20205 | Transmilli müəssisələrin statistikası |
| | 20299 | Başqa sahələrdə təsnifləşdirilməyən biznes statistikası. |
| 203 | Sektoral statistika | |

20301 Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq
20302 Energetika
20303 Mədənçıxarma, emal sənayesi və tikinti
20304 Nəqliyyat
20305 Turizm
20306 Bank işi, sığorta və maliyyə bazarı statistikası
20307 Topdan və pərakəndə ticarət
20399 Başqa sahələrdə təsnifləşdirilməyən sektoral statistika

204 Beynəlxalq ticarət
205 Qiymətlər
206 Elm, texnologiya və innovasiya
299 Başqa sahələrdə təsnifləşdirilməyən iqtisadi statistika

## Sahə 3 – Ətraf mühit statistikası

301 Ətraf mühitin vəziyyəti və keyfiyyəti
302 Ekoloji ehtiyatlar və onlardan istifadə
303 Tullantılar
304 Təhlükəli hadisələr və fəlakətlər
305 Yaşayış məntəqələri və ətraf mühitin sağlamlığı
306 Ətraf mühitin mühafizəsi, idarə edilməsi və onunla qarşılıqlı əlaqə
399 Başqa sahələrdə təsnifləşdirilməyən ətraf mühit statistikası

## Sahə 4 – İdarəetmə statistikası

401 Ayrı-seçkiliyə yol verməmək və bərabərlik
402 İştirakçılıq
403 Açıqlıq
404 Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin keyfiyyəti
405 Həssaslıq
406 Korrupsiyaya qarşı mübarizə
407 İnam
408 Mühafizə və təhlükəsizlik

40801 Cinayətkarlıq və cinayət mühakiməsi

40899 Başqa sahələrdə təsnifləşdirilməyən mühafizə və təhlükəsizlik statistikası

499 Başqa sahələrdə təsnifləşdirilməyən idarəetmə statistikası

## Sahə 5 – Sahələrarası statistika

501 Dayanıqlı inkişaf

502 İnsan hüquqları

503 Gender statistikası

504 Xüsusi əhali qrupları

505 Həyat şəraiti və yoxsulluq

506 İqlim dəyişikliyi

507 Regional və kiçik sahə statistikası

508 İnformasiya cəmiyyəti və rəqəmsallaşma

509 Dairəvi iqtisadiyyat

510 Sosial və həmrəylik iqtisadiyyatı

599 Başqa sahələrdə təsnifləşdirilməyən sahələrarası statistika

## Sahə 6 – Statistik infrastruktur və metodologiya

601 Metaməlumat

602 Təsnifatlar

603 Statistik reyestrlər

60301 Statistik biznes reyestrləri

60302 Əhali reyestrləri

60303 Yaşayış yerlərinin və tikililərin reyestrləri

60304 Kənd təsərrüfatı reyestrləri

60399 Başqa sahələrdə təsnifləşdirilməyən statistik reyestrlər

604 Məlumat mənbələri

60401 Əhali və mənzil fondu siyahıyaalmaları

60402 Müəssisə və kənd təsərrüfatı siyahıyaalmaları

60403 Ev təsərrüfatlarının və fiziki şəxslərin müayinələri

60404 Müəssisə və kənd təsərrüfatı müayinələri

60405 İnzibati mənbələr

60499 Başqa sahələrdə təsnifləşdirilməyən məlumat mənbələri

605 Məlumat mübadiləsi və məlumatların bölüşdürülməsi

606 Məlumatların işlənməsi və təhlili

607 Məlumat elmi

608 Geoməkan məlumatları

609 Statistik konfidensiallıq və ilkin məlumatların mühafizə olunması

610 Məlumatların yayılması və kommunikasiya

699 Başqa sahələrdə təsnifləşdirilməyən statistik infrastruktur və metodologiya

## Sahə 7 – Strateji və idarəetmə fəaliyyətləri

701 İnstitusional struktur (çərçivə) və prinsiplər; rəsmi statistikanın rolu və təşkili

702 Statistikanın milli səviyyədə əlaqələndirilməsi

703 Keyfiyyətin idarə edilməsi

704 İnsan resurslarının idarə edilməsi

705 İT-nin, informasiya və biliyin idarə edilməsi

706 Digər resursların idarə edilməsi

707 Beynəlxalq statistik əlaqələndirmə

708 Potensialın inkişafı

799 Başqa sahələrdə təsnifləşdirilməyən strateji və idarəetmə fəaliyyətləri

# İzahlı qeydlər

## Sahə 1 – Demoqrafiya və sosial statistika

### 101 Əhali

Əhali və demoqrafiya statistikası üzrə fəaliyyətləri əhatə etməklə, demoqrafiya, əhalinin təbii hərəkəti, əhalinin strukturu (tərkibi) və artımı, əhalinin gözlənilən sayı, ailələr və ev təsərrüfatları (nikahlar, boşanmalar, ev təsərrüfatlarının orta ölçüsü) kimi mövzuları özündə əks etdirir.

İstisna edilir:

- Ölüm səbəbləri (105).

**102 Miqrasiya**

Qaçqın və məcburi köçkünlər, sığınacaq axtaranlar, əməkçi miqrantların hərəkəti, müvəqqəti yaşama və qaibolma müddətinə görə miqrantlar, immiqrantlar və emiqrantlar, miqrasiya axınları və miqrantların sayı, həmçinin miqrasiyanın idarə edilməsinin müvafiq göstəriciləri üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- İnsan alveri (408);
- Vətəndaşlığı olmayan şəxslər (504).

**103 Əmək**

Həm məşğulluğun, həm də ödənişi və ya qazancı (gəliri) olmayan işin, işçi qüvvəsinin, əmək bazarı və işsizliyin daxil olduğu statistik fəaliyyətləri əhatə edir. Daha ətraflı mövzulara iqtisadi fəal əhali, əmək şəraiti, yeni əmək fəaliyyəti strukturu (əmək fəaliyyətinin yeni formaları), iş yerində əməyin mühafizəsi və təhlükəsizliyi (istehsalatda bədbəxt hadisələr, istehsalat xəsarətləri və peşə xəstəlikləri, istehsalatla (işlə) əlaqəli sağlamlıq problemləri), iş vaxtı və digər əmək şəraiti, tətillər və işdən çıxarılmalar, vakansiyalar, iş yerlərinin yaradılması, əməkhaqqı və əmək xərcləri daxildir.

İstisna edilir:

- İşsizlikdən sığorta və işsizliyə görə müavinət (107);
- Həmkarlar ittifaqına üzvlük (402).

**104 Təhsil**

Təhsildə iştirak, savadsızlıq, təhsil müəssisələri və sistemləri, təhsilə yönəldilmiş insan və maliyyə resursları, ömürboyu təhsil, peşə hazırlığı və yaşlıların təhsili, təhsilin təsiri, təhsil alanların müvəffəqiyyətinin qiymətləndirilməsi və s. statistik fəaliyyətləri əhatə edir.

**105 Səhiyyə**

Gözlənilən ömür uzunluğu, sağlamlıq vəziyyəti, sağlamlıq və təhlükəsizlik, sağlamlıq determinantları (həyat tərzi, qidalanma, siqaretçəkmə, spirtli içkilərdən və narkotiklərdən istifadə də daxil olmaqla), sağlamlıq resursları və xərcləri, səhiyyə sistemləri, xəstələnmə və ölüm (körpə və uşaq ölümü daxil olmaqla) xəstəxanaya yerləşdirmə, xəstəlik və ölüm səbəbləri, spesifik xəstəliklər (məsələn, QİÇS), əlillik, əczaçılıq məhsullarının istehlakı və satışı, səhiyyə işçiləri, səhiyyə işçilərinin mükafatlandırılması, ekoloji sağlamlığın

statusu, sağlamlıq bərabərsizliyi kimi mövzular da daxil olmaqla sağlamlıq və ölümlə bağlı statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Əməyin mühafizəsi və təhlükəsizliyi (103);
- Viktimizasiya (Cinayət əməlinin qurbanları) (408);
- Yol-nəqliyyat hadisələri və xəsarətlər (20304);
- Tibbi hesablar (20101).

**106 Gəlirlər və istehlak**

Gəlirlərin bölüşdürülməsi, natura şəklində gəlirlər, hesablanmış və ödənilmiş pul köçürmələri, yoxsulluğun gəlir və ya xərclərə əsasən ölçülməsi, istehlakçı hüquqlarının müdafiəsi, istehlakın strukturu, istehlak malları və uzunmüddətli istifadə üçün nəzərdə tutulan mallar, ev təsərrüfatlarının rifahı və borcları kimi göstəricilər də daxil olmaqla ev təsərrüfatlarının və ya fiziki şəxslərin (bütün növ gəlir və xərcləri) gəlir və xərcləri üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Müxtəlif risklərə qarşı sosial müdafiə sxemləri (107);
- Vergi sxemləri (20103);
- Çoxölçülü yoxsulluq (505);
- Həyat şəraiti (505).

**107 Sosial müdafiə**

İnsanların işsizlik, sağlamlıq vəziyyəti, əlillik, qocalıq, valideynlik öhdəlikləri, həyat yoldaşını və ya valideynini və s. itirməsi ilə bağlı qeyri-adekvat gəlir risklərindən qorumaq tədbirləri ilə bağlı statistik fəaliyyətləri, həmçinin təqaüdün (əmək pensiyalarının və müavinətlərin) alınması, sosial təminat sxemləri, sosial müdafiə xərcləri və s. fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- İqtisadi fəaliyyət subyekti olan sığorta şirkətləri (20306);
- Maliyyə bazarlarında fəaliyyət subyekti olan pensiya fondları (20306).

**108 Yaşayış məntəqələri və yaşayış yerləri**

Mənzil, yaşayış və yaşayış məntəqələri üzrə statistik fəaliyyətləri əhatə edir.

**109** **Mədəniyyət**

Teatrlar, kinoteatrlar, muzeylər, kitabxanalar, media, musiqi, kitab istehsalı (nəşri), idman və istirahət, mədəniyyət xərcləri və mədəniyyətin maliyyələşdirilməsi kimi cəmiyyətdə mədəni fəaliyyətlə bağlı statistikanı əhatə edir.

**110** **Vaxtdan istifadə**

Bu sahə fərdlər (şəxslər) tərəfindən daha çox şəxsi həyat və iş arasındakı balansla (ailə öhdəliklərinin və haqqı ödənilən işlərin uzlaşdırılması) və haqqı ödənilməyən işlə əlaqədar vaxtdan istifadə, asudə vaxt, şəxsi fəaliyyətlər və sosial əlaqələrə dair statistik fəaliyyətləri əhatə edir.

**199** **Başqa sahələrdə təsnifləşdirilməyən demoqrafiya və sosial statistika**

Yuxarıda qeyd edilən sahələrdə təsnifləşdirilməyən demoqrafiya və sosial statistika sahəsində istənilən fəaliyyət üçün qalıq kateqoriyası.

## Sahə 2 – İqtisadi statistika

**201** **Makroiqtisadi hesablar və makroiqtisadi statistika**

Makroiqtisadi hesablar və makroiqtisadi statistika üzrə statistik fəaliyyətləri əhatə edir. Bura institusional sektorlar və iqtisadiyyatın sahələri daxildir. Bu kateqoriya iqtisadi statistikanın müxtəlif komponentlərinin ümumiləşdirilməsini, konsolidasiyasını və uzlaşdırılmasını əhatə edir.

*20101* *Milli Hesablar Sistemi*

Milli hesablar üzrə statistik fəaliyyəti əhatə edir. Bu kateqoriyaya inteqrasiya olunmuş iqtisadi hesabların, genişləndirilmiş və tematik hesablar (satelit hesablar) və cədvəllərin, regional hesabların, ehtiyat və istifadə, xərclər-buraxılış və “kimdən-kimə” cədvəllərinin tərtibi daxildir. Bura, həmçinin qeyri-formal iqtisadiyyat və qeyri-qanuni iqtisadiyyatla bağlı makroiqtisadi statistika da daxil edilir.

İstisna edilir:

- Tədiyə balansı və beynəlxalq investisiya mövqeyi (20102);
- Dövlət maliyyəsi statistikası (20103);
- Pul və maliyyə statistikası (20104);

- Ekoloji - iqtisadi uçot sistemi (20105);
- İqtisadiyyatın müxtəlif sahələrini əhatə edən kompleks göstəricilər (20199);
- Mühafizə və təhlükəsizlik (408).

*20102 Tədiyə balansı və beynəlxalq investisiya mövqeyi*

Birbaşa Xarici İnvestisiyalar (BXİ) daxil olmaqla, tədiyə balansı və beynəlxalq investisiya mövqeyi üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Malların və xidmətlərin beynəlxalq ticarəti statistikası (204).

*20103 Dövlət maliyyəsi statistikası*

Dövlət idarəetməsi sektoru və əhatəsi daha geniş olan dövlət sektoru üzrə statistik fəaliyyəti əhatə edir. Bu fəaliyyət gəlirlər, xərclər, maliyyə aktivləri və öhdəlikləri üzrə əməliyyatlarla bağlı məlumatların, habelə aktivlər və öhdəliklər balansının tərtibini ehtiva edir.

*20104 Pul və maliyyə statistikası*

İqtisadiyyatın maliyyə korporasiyaları sektorunun maliyyə və qeyri-maliyyə aktivləri və öhdəliklərinin ehtiyatları və axınlarına, habelə iqtisadiyyatın digər sektorlarının maliyyə aktivləri və öhdəliklərinin ehtiyatları və axınlarına dair məlumatların tərtibi üzrə statistik fəaliyyəti əhatə edir.

İstisna edilir:

- Dövlət maliyyəsi statistikası (20103);
- Bank işi, sığorta və maliyyə bazarı statistikası (20306).

*20105 Ekoloji - iqtisadi uçot sistemi*

Ekoloji-İqtisadi Uçot Sistemi (System of Environmental-Economic Accounting - SEEA) üzrə statistik fəaliyyətləri əhatə edir. Su hesabları, enerji hesabları, meşə hesabları, okean hesabları, biomüxtəliflik hesabları və s. kimi ekosistem hesabları və tematik hesablar bura daxildir. Hesablar formatında tərtib edilməyən ənənəvi ətraf mühit statistikasına dair fəaliyyətləri istisna edir.

İstisna edilir:

- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq statistikası (20301);
- Energetika statistikası (20302);
- Ətraf mühit statistikası (3).

*20199 Başqa sahələrdə təsnifləşdirilməyən makroiqtisadi hesablar və makroiqtisadi statistika*

Makroiqtisadi hesablar və makroiqtisadi statistika üzrə başqa sahələrdə təsnifləşdirilməyən statistik fəaliyyətləri əhatə edir. Bura biznes tsiklinin təhlili, kompozit (qarışıq) göstəricilər və s. daxildir.

**202 Müəssisələr statistikası (Biznes statistikası)**

Bu sahə müxtəlif sektorlar üzrə müəssisələrin ümumi iqtisadi fəaliyyətinə dair statistik fəaliyyətləri əhatə edir (ayrı-ayrı spesifik sektorlara aid olan 20301-20307-dən fərqli olaraq). Onun əhatə dairəsinə müəssisələrin iqtisadi fəaliyyəti, investisiya qoyuluşu, biznes demoqrafiyası, biznes xidmətlər, xidmətlərə tələbat, sənaye məhsuldarlığı, ölçü kateqoriyalarına görə müəssisələr, sənaye istehsalı, əmtəələr, satış və xidmətlərin strukturu, xidmət sahələrinin buraxılışı, qeyri-kommersiya təşkilatları, müəssisələrdən toplanan əmək statistikası daxildir.

İstisna edilir:

- Sektoral statistika (203);
- Sosial və həmrəylik iqtisadiyyatı (510);
- Statistik biznes reyestrləri (60301).

*20201 Qısamüddətli müəssisələr (biznes) statistikası*

Bir ildən daha qısa olan dövrlər (məsələn, rüblük, aylıq və s.) üzrə müxtəlif sahələrin biznes statistikasına dair fəaliyyəti əhatə edir. Bura biznes meyilləri ilə bağlı statistik müayinələr, habelə müəssisələr üzrə aparılan, məşğulluq və əməkhaqqına dair müayinələr də daxildir.

İstisna edilir:

- Ev təsərrüfatlarının gəlir mənbəyi kimi göstərilən əməkhaqqı (106);
- Müəyyən bir spesifik sektor üzrə qısamüddətli statistika (203);
- Beynəlxalq ticarət üzrə qısamüddətli göstəricilər (204);

- İstehsalçı Qiymət İndeksləri (205).

*20202* *Struktur biznes statistikası*

İllik dövriliklə müxtəlif sahələr üzrə müəssisələrin strukturu, iqtisadi fəaliyyəti və səmərəliliyi ilə bağlı statistik fəaliyyətləri əhatə edir

İstisna edilir:

- Biznes demoqrafiyası və biznes dinamikası (20203);
- Sahibkarlıq (20204);
- Sektoral statistika (203);
- Müəssisə xüsusiyyətlərinə görə mallar üzrə ticarət statistikası (Trade in goods statistics by enterprise characteristics - TEC) və Müəssisə xüsusiyyətlərinə görə xidmətlərin ticarəti (Services trade by enterprise characteristics STEC) (204).

*20203* *Biznes demoqrafiyası və biznes dinamikası*

Bütün iqtisadiyyatda və ya onun konkret sahələrində müəssisələrin yaranması, ləğv olunması, sağ qalması və digər bu kimi hadisələr üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Struktur biznes statistikası (20202);
- Sahibkarlıq (20204).

*20204* *Sahibkarlıq*

Fərdlərin və təşkilatların sahibkarlıq fəaliyyətinin müəyyənedici amillərinin səmərəliliyinin və təsirlərinin ölçülməsi üzrə statistik fəaliyyətləri əhatə edir. Bura, həmçinin gender nöqteyi-nəzərdən sahibkarlıq fəaliyyətinin və əhalinin digər alt qruplarının sahibkarlıq fəaliyyətinin tədqiqatları daxildir.

*20205* *Transmilli müəssisələrin statistikası*

İqtisadiyyatın müxtəlif sahələri üzrə çoxmilli müəssisələrin statistik fəaliyyətlərini əhatə edir. Bura, həmçinin xarici filialların statistikası da (Foreign Affiliate Statistics - FATS) daxildir, lakin çoxmilli müəssisələrin birbaşa xarici investisiyaları istisna təşkil edir.

İstisna edilir:

- BXİ (Birbaşa Xarici İnvestisiyalar) (20102).

*20299 Başqa sahələrdə təsnifləşdirilməyən biznes statistikası*

Başqa sahələrdə təsnif edilməyən biznes statistikasının digər sahələr üzrə fəaliyyətlərini əhatə edir. Məsələn, müəssisələrin rifah və dayanıqlılığına biznesin təsiri ilə bağlı statistika və s.

**203 Sektoral statistika**

Aşağıdakı kateqoriyalarda müəyyən edilmiş iqtisadiyyatın xüsusi sektorları və ya seqmentləri üzrə bir sıra statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Təhsil (104);
- Səhiyyə (105);
- Sosial müdafiə (107);
- Mədəniyyət (109);
- Makroiqtisadi hesablar və makroiqtisadi statistika (201);
- Müəssisələr statistikası (Biznes statistikası) (202);
- Elm, texnologiya və innovasiya (206).

*20301 Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq*

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqla bağlı statistik fəaliyyətləri əhatə edir. Bura kənd təsərrüfatı məhsulları istehsalının dəyər ifadəsində hesablanması statistikası (kənd təsərrüfatının iqtisadi hesabları), kənd təsərrüfatı strukturları (təsərrüfat strukturu), kənd təsərrüfatı məhsullarının ticarəti, bitkiçilik və heyvandarlıq məhsulları, kənd təsərrüfatı malları, aqrar sənaye statistikası (o cümlədən qida məhsullarının istehsalı və təhlükəsizliyi), qida və qida təhlükəsizliyi, ekoloji təmiz kənd təsərrüfatı və ekoloji təmiz qida, məhsulların ehtiyatı və istifadəsi cədvəlləri, meşəçilik və meşə məhsulları statistikası, meşə məhsullarının ticarəti və balıqçılıq daxildir.

İstisna edilir:

- Kənd təsərrüfatında işçi qüvvəsi (103);
- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üçün dövlət xərcləri (20103);

- Meşə ehtiyatlarının qiymətləndirilməsi (20105);
- Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq üçün ekoloji uçot (20105);
- Meşə yanğınları (304).

*20302* *Energetika*

Enerji təchizatı, enerji istehlakı (istifadəsi), enerji balansları, təchizat təhlükəsizliyi, enerji bazarları, enerjinin daxili ticarəti, enerjinin səmərəliliyi, bərpa olunan enerji mənbələri üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Ev təsərrüfatlarının enerji istehlakı xərcləri (106);
- Enerji hesabları (20105).

*20303* *Mədənçıxarma, emal sənayesi və tikinti*

Mədənçıxarma, emal sənayesi və tikinti sahələrində istehsal fəaliyyətləri üzrə statistikanı əhatə edir.

İstisna edilir:

- İstehsal olunan məhsulların qiymətləri və İstehsalçı Qiymət İndeksləri (İQİ) (205).

*20304* *Nəqliyyat*

Bütün daxili nəqliyyat növləri (hava, dəmir yolu, avtomobil, daxili su yolları, dəniz, boru kəmərləri) üzrə statistik fəaliyyətləri əhatə edir; nəqliyyat infrastrukturu, avadanlıq, nəqliyyat axını, şəxsi daşınma (mobillik), təhlükəsizlik, nəqliyyat qəzaları, nəqliyyatda enerji istehlakı, nəqliyyat müəssisələri, sərnişin və yük daşımaları, nəqliyyat sektorunun inkişaf istiqamətləri (tendensiyaları), yol-nəqliyyat hadisələri kimi mövzuları ehtiva edir.

İstisna edilir:

- Nəqliyyat xidmətlərinin qiymətləri (205).

*20305* *Turizm*

Turizmin müxtəlif formaları (daxili, gəlmə və getmə) ilə bağlı ziyarətçi fəaliyyətinə (məsələn, gəlişlər/gedişlər, gecələmələr, xərclər, səfərin məqsədi və s. kimi) dair statistik məlumatları, turizm sənayesinin fəaliyyətini və

infrastrukturunu, həmçinin turizm sənayesində məşğulluq statistikasını əhatə edir.

İstisna edilir:

- Turizm satellit (köməkçi) hesabları (20101);
- Turist xidmətlərinin qiymətləri (205);
- Turizmin ətraf mühitə təsiri (305).

*20306* *Bank işi, sığorta və maliyyə bazarı statistikası*

Pul kütləsi, faiz dərəcələri, valyuta məzənnələri, fond bazarı göstəriciləri, qiymətli kağızlar, bankların rentabelliyi, özəl sektorun sığortası və pensiya fondlarının idarə edilməsi üzrə statistika və maliyyə dayanıqlığı göstəriciləri daxil olmaqla bank, sığorta və digər maliyyə bazarlarının statistikası üzrə fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Fərdi pensiya fondlarının benefisiarları (107);
- Dövlət pensiyasının və digər dövlət sosial təminat sistemlərinin maliyyələşdirilməsi (107);
- Pul və maliyyə statistikası (20104).

*20307* *Topdan və pərakəndə ticarət*

Topdan və pərakəndə ticarət üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Beynəlxalq ticarət (204).

*20399* *Başqa sahələrdə təsnifləşdirilməyən sektoral statistika*

Başqa sahələrdə təsnif edilməyən sektoral statistikanın digər sahələr üzrə (məsələn, daşınmaz əmlak statistikası) fəaliyyətlərini əhatə edir.

**204** **Beynəlxalq ticarət**

Mal və xidmətlərin transsərhəd ticarəti üzrə statistik fəaliyyətlərini əhatə edir. Müəssisə xüsusiyyətlərinə görə mal ticarəti (TEC-Trade by Enterprise Characteristics) və xidmət ticarəti (STEC - Services Trade by Enterprise

Characteristics), beynəlxalq yükdaşımalar, tariflər, bazara çıxış, xarici yardım, inkişafa yardım, inkişaf etməkdə olan ölkələrə resurs axını ilə bağlı statistika daxildir.

İstisna edilir:

- Tədiyə balansı (20102);
- Birbaşa xarici investisiyalar (BXİ) (20102);
- Xarici təşkilatların statistikası (FATS) (20205);
- Topdan və pərakəndə ticarət (20307).

**205 Qiymətlər**

Alıcılıq Qabiliyyəti Paritetləri (AQP) və ÜDM-in beynəlxalq müqayisələri də daxil olmaqla qiymətlərlə bağlı statistik fəaliyyətləri əhatə edir; İstehlak Qiymətləri İndeksləri (İQİ), inflyasiya, İstehsalçı Qiymət İndeksləri, məhsul və xidmətlərin qiymət indeksləri (məsələn, informasiya və kommunikasiya texnologiyaları məhsulları və ya kirayə haqqı) kimi mövzuları ehtiva edir.

İstisna edilir:

- Əməkhaqqı (106 və 20201);
- Faiz dərəcələri (20306);
- Valyuta məzənnələri (20306).

**206 Elm, texnologiya və innovasiya**

Tədqiqat və İnkişaf (R&D), innovasiyalar, patentlər, elm, texnologiya və innovasiya sahəsində insan resursları, yüksək texnologiya sənayesi və elm tutumlu xidmətlər, biotexnologiya, elmi tədqiqat işləri və innovasiyanın maliyyələşdirilməsi üzrə statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- İnformasiya və kommunikasiya texnologiyaları (İKT) (508).

**299 Başqa sahələrdə təsnifləşdirilməyən iqtisadi statistika**

Başqa sahələrdə təsnif edilməyən iqtisadi statistikasının digər sahələr üzrə fəaliyyətlərini əhatə edir.

## Sahə 3 – Ətraf mühit statistikası

Ətraf mühitin vəziyyəti və ekoloji tarazlığın pozulması, təbii resursların keyfiyyəti və mövcudluğu, insan fəaliyyətinin və təbii hadisələrin ətraf mühitə təsiri və dəyişən ekoloji şəraitin təsiri ilə bağlı statistik fəaliyyətləri əhatə edir. Bu sahənin alt komponentlər üzrə bölgüsü 2013-cü ildə BMT-nin Statistika Komissiyası tərəfindən təsdiq edilmiş Ətraf Mühit Statistikasının İnkişafı Çərçivəsinə (FDES - Framework for the Development of Environment Statistics) uyğundur. Bu sahənin daha ətraflı bölgüsünə dair məlumatları Ətraf Mühit Statistikasının İnkişafı Çərçivəsində tapmaq mümkündür.

İstisna edilir:

- Ekoloji-iqtisadi uçot sistemi (20105).

**301 Ətraf mühitin vəziyyəti və keyfiyyəti**

Ətraf mühitin fiziki, bioloji və kimyəvi xüsusiyyətləri və onların zamanla dəyişməsi üzrə statistik fəaliyyətləri əhatə edir. Komponentə aşağıdakı statistik göstəricilər daxildir: meteoroloji, hidroqrafik, geoloji, coğrafi şərait və torpağın xüsusiyyətlərinə dair statistik məlumatlar olan fiziki şərait; torpaq örtüyü, ekosistemlər və biomüxtəliflik; səs-küy, havanın, suyun və torpağın çirklənməsi.

**302 Ekoloji ehtiyatlar və onlardan istifadə**

Ehtiyatlar üzrə statistik fəaliyyətləri, ehtiyatlarda dəyişiklikləri və onların ekoloji resursların istehsalı və istehlakı üçün istifadəsini əhatə edir. Komponentə aşağıdakılar daxildir: mineral ehtiyatlar; enerji resursları; torpaq; torpaq ehtiyatları; bioloji resurslar; və su ehtiyatları (okeanlar daxil olmaqla).

**303 Tullantılar**

Proseslər (istehsal, istehlak və ya saxlama) zamanı müəssisələr və ev təsərrüfatları tərəfindən buraxılan, atılan və ya boşaldılan bərk, maye və qaz halında olan materialların və enerjinin axınları üzrə statistik fəaliyyətləri əhatə edir. Komponentə aşağıdakılar daxildir: hava emissiyaları; tullantı (çirkab) sularının əmələ gəlməsi və idarə edilməsi; tullantıların əmələ gəlməsi və idarə edilməsi; kimyəvi maddələrin atılması.

**304 Təhlükəli hadisələr və fəlakətlər**

Təhlükəli hadisələrin və fəlakətlərin baş verməsi və onların insanların rifahına və infrastruktura təsirləri ilə bağlı statistik fəaliyyətləri əhatə edir. Komponentə təhlükəli hadisələrin və fəlakətlərin baş verməsi, tezliyi və intensivliyi, habelə

onların insan həyatına və yaşayış mühitinə, bütövlükdə ətraf mühitə təsiri haqqında statistik məlumatlar daxildir.

**305 Yaşayış məntəqələri və ətraf mühitin sağlamlığı**

İnsanların yaşadığı və işlədiyi ətraf mühitlə, xüsusən də yaşayış şəraiti və ətraf mühitin sağlamlığı ilə bağlı statistik fəaliyyətləri əhatə edir. Komponentə aşağıdakılar daxildir: şəhər və kənd əhalisinin, mənzil şəraitinin və ətraf mühitin çirklənməsinə məruz qalmanın statistikası olan yaşayış məntəqələri; hava, vektor, su ilə ötürülən xəstəliklər və ətraf mühitin şəraitinin və çirklənmənin insan sağlamlığına təsirinə dair ətraf mühitin sağlamlığı haqqında statistik məlumatlar.

**306 Ətraf mühitin mühafizəsi, idarə edilməsi və onunla qarşılıqlı əlaqə**

Ətraf mühitin mühafizəsi, idarə edilməsi və onunla qarşılıqlı əlaqəyə həsr olunmuş resurslar üzrə statistik fəaliyyətləri əhatə edir. Komponentə daxildir: ətraf mühitin mühafizəsi və resursların idarə olunması xərcləri, ətraf mühitin idarə edilməsi və tənzimlənməsi, təhlükəli hadisələrə hazırlıq və fəlakətlərin idarə edilməsi, ətraf mühitlə bağlı məlumat və maarifləndirmə.

**399 Başqa sahələrdə təsnifləşdirilməyən ətraf mühit statistikası**

Yuxarıdakı sahələr altında təsnif edilə bilinməyən ətraf mühit statistikası üzrə hər hansı fəaliyyət üçün qalıq kateqoriya.

## Sahə 4 – İdarəetmə statistikası

Bu sahə üzrə bölgü 2020-ci ildə BMT-nin Statistika Komissiyası tərəfindən təsdiq edilmiş İdarəetmə Statistikası Təlimatının (HGS - Handbook of Governance Statistics) strukturuna uyğundur. Statistik sahələr üzrə daha ətraflı məlumat bu təlimatda öz əksini tapmışdır (Bu sahə təsnifatın əvvəlki versiyasının (CSA 2009) 1.8 “Hüquqpozma və cinayətkarlıq” alt sahəsini əvəz edir və genişləndirir).

**401 Ayrı-seçkiliyə yol verməmək və bərabərlik**

Yaşa, cinsə, əlilliyə, irqə, etnik mənsubiyyətə, mənşəyə, dini və ya iqtisadi və ya digər statusa görə insan hüquq və azadlıqlarına xələl gətirmək niyyəti və ya təsiri olan diferensial rəftarın ölçülməsi ilə bağlı statistik fəaliyyətləri əhatə edir. O, həm birbaşa, həm də dolayı ayrı-seçkiliyi əhatə edir.

**402** **İştirakçılıq**

İnsanların siyasi və ictimai işlərdə, o cümlədən seçkilərdə iştirak etmək, səs vermək və ya seçkilərdə namizəd kimi iştirak etmək; qanunvericilik, icra və məhkəmə orqanlarının üzvü olmaq; dövlət qulluğunda vəzifələrə təyin olunmaq; həmkarlar ittifaqının üzvü olmaq; fərdi şəkildə və ya siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının üzvü kimi siyasi fəaliyyətlə məşğul olmaq kimi fəaliyyətləri əhatə edir.

**403** **Açıqlıq**

Dövlət qurumlarının informasiyaya çıxışı nə dərəcədə təmin etməsi və qərarların qəbulu və siyasətin hazırlanması proseslərində açıqlıqla bağlı statistik fəaliyyətləri əhatə edir. Daha konkret olaraq, informasiyanın əldə edilməsini, açıq hökumət üçün prinsipləri, söz azadlığı və media plüralizmini əhatə edir.

**404** **Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin keyfiyyəti**

Qərəzsiz rəsmi və ya qeyri-rəsmi ədalət mühakiməsi institutları və müvafiq hüquqi dəstək vasitəsilə insanların öz hüquqlarını müdafiə etmək və həyata keçirmək və problemlərin ədalətli həllini əldə etmək qabiliyyətinə dair statistik fəaliyyətləri əhatə edir. Bu sahə hüquqi yardımın əlçatanlığı, səmərəliliyi və keyfiyyəti, proseslər, qərarlar və nəticələr də daxil olmaqla həm cinayət, həm də mülki ədalət mühakiməsini əhatə edir.

İstisna edilir:

- Cinayətkarlıq və cinayət mühakiməsi (40801).

**405** **Həssaslıq**

Dövlət qurumlarının insanların istəklərini nə dərəcədə dinləməsi kimi müəyyən edilən hökumətin həssaslığına dair statistik fəaliyyətləri əhatə edir. Həssaslıqla bağlı statistika adətən hökumətin reaksiyasına, yəni insanların hökumətin gördüyü işlərdə söz sahibi olduqları inamına və xüsusilə də səhiyyə və təhsil sahələrində dövlət xidmətlərindən məmnunluğuna diqqət yetirir.

**406** **Korrupsiyaya qarşı mübarizə**

Aşağıdakılar üzrə statistik fəaliyyətləri əhatə edir:

1) korrupsiyaya qarşı dözümsüzlük səviyyəsi (yəni, korrupsiya təcrübələrinə qarşı müqaviməti gücləndirən etik dəyərlər, prinsiplər və normalar);
2) korrupsiya təcrübələrinin səviyyələri və nümunələri;

3) dövlətin korrupsiyaya reaksiyası.

**407 İnam**

İnsanların həm qurumlara, həm də digər insanlara inamı ilə bağlı statistik fəaliyyətləri əhatə edir, bununla belə əsas diqqət parlamentə, hökumətə və ədliyyə sisteminə yetirilir.

**408 Mühafizə və təhlükəsizlik**

Cinayətkarlıq, viktimizasiya, zorakılıq, təhlükəsizlik, insan alveri, silahlı əməliyyatlar nəticəsində törədilən hadisələrdə itkilərin sayının müəyyən edilməsi, hüquq-mühafizə orqanlarının və cinayət ədaləti mühakiməsi institutlarının işinin keyfiyyəti ilə bağlı statistik fəaliyyətləri əhatə edir.

*40801 Cinayətkarlıq və cinayət mühakiməsi*

Cinayətlərlə bağlı statistik fəaliyyətləri, o cümlədən zorakı və qeyri-zorakı cinayət əməllərini (cinayət hüquqpozmalarının təfərrüatları üçün - Cinayətlərin Statistik Məqsədlər üçün Beynəlxalq Təsnifatı), həmçinin cinayət ədaləti sistemləri və zərərçəkmə ilə bağlı statistik fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin keyfiyyəti (404).

*40899 Başqa sahələrdə təsnifləşdirilməyən mühafizə və təhlükəsizlik statistikası*

Başqa yerdə təsnif edilməyən mühafizə və təhlükəsizlik statistikası üzrə hər hansı fəaliyyət üçün qalıq kateqoriya. Bura silahlı münaqişələrlə bağlı mühafizə və təhlükəsizlik statistikası daxildir.

**499 Başqa sahələrdə təsnifləşdirilməyən idarəetmə statistikası**

Yuxarıdakı sahələr altında təsnif edilə bilinməyən hər hansı idarəetmə statistikası üçün qalıq kateqoriya.

## Sahə 5 – Sahələrarası statistika

Siyasi inkişaf proqramlarının məlumat ehtiyaclarını ödəmək üçün müxtəlif sahələrdən məlumatların inteqrasiyasını tələb edən tematik yanaşmalara

əsaslanan konseptual məsələlər və ya məlumatlarla iş üzrə statistik fəaliyyətləri əhatə edir. Bu sahə, həmçinin digər sahələrdə təsnif edilməyən statistik fəaliyyətləri əhatə edir.

**501 Dayanıqlı inkişaf**

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasındakı irəliləyişin qiymətləndirilməsi üçün göstəricilər də daxil olmaqla, dayanıqlı inkişafın monitorinqinin əsasları və indikatorları üzrə statistik fəaliyyəti əhatə edir.

İstisna edilir:

- Ekoloji-iqtisadi uçot sistemi (20105);
- Ətraf mühit statistikası (3).

**502 İnsan hüquqları**

İnsan hüquqlarının monitorinqi üçün göstəricilər və çərçivələr üzrə statistik fəaliyyətləri əhatə edir (məsələn, məlumatlara insan hüquqlarına əsaslanan yanaşma, San Salvador Protokolunun göstəriciləri).

**503 Gender statistikası**

Bütün statistik sahələrdə gender bərabərliyinə nəzarət etmək üçün göstəricilər və çərçivələr üzrə statistik fəaliyyətləri əhatə edir. Bura həyatın bütün sahələrində qadınların və kişilərin, qızların və oğlanların vəziyyətindəki fərqləri və bərabərsizlikləri, həmçinin gender kimliyi və cinsi oriyentasiyanı izləmək üçün statistik fəaliyyətlər daxildir.

**504 Xüsusi əhali qrupları**

Statistikanın müxtəlif sahələrində uşaqlar, gənclər, yaşlılar, yerli xalqlar, əlilliyi olan şəxslər, etnik azlıqlar, etnomədəni qruplar, vətəndaşlığı olmayan şəxslər və s. kimi xüsusi əhali qruplarının monitorinqi üçün göstəricilər və çərçivələr üzrə işi əhatə edir (məsələn, qocalma üzrə göstəricilər).

İstisna edilir:

- Ayrı-seçkiliyə yol verməmək və bərabərlik (401).

**505 Həyat şəraiti və yoxsulluq**

İqtisadi, sosial və s. aspektlərə toxunmaqla rifah, həyat şəraiti və yoxsulluğun monitorinqi üçün göstəricilər və çərçivələr üzrə statistik fəaliyyətləri əhatə edir.

(məsələn, İnsan İnkişafı İndeksi, Çoxölçülü Yoxsulluq İndeksi). Bu sahəyə yoxsulluq, geniş mənada həyat şəraiti, həyat keyfiyyəti, sosial inklüzivlik/təcridolunma, sosial göstəricilər və sosial statusun ölçülməsi üçün çoxölçülü metodlar üzrə fəaliyyətlər daxildir.

**506 İqlim dəyişikliyi**

İqlim dəyişikliyi ilə bağlı statistika, göstəricilər və çərçivələr (məsələn, iqlim dəyişikliyi ilə bağlı göstəricilər və statistik məlumatlar toplusu) üzrə fəaliyyətləri əhatə edir. Bu, istixana qazları emissiyalarına, iqlim dəyişikliyinin səbəblərinə, təsirlərinə, təsirlərin azaldılmasına və iqlimə uyğunlaşmaya aid ola bilər.

İstisna edilir:

- Ekoloji-iqtisadi uçot sistemi (20105);
- Ətraf mühit statistikası (3).

**507 Regional və kiçik sahə statistikası**

İnzibati vahidlər, şəhər və kənd statistikası, kəndin inkişafı, regional hesablar, regional tipologiyalar və regional fərqlər əsasında submilli (altmilli) ərazilərə və ya ərazilərə bağlı regional statistika və statistika sahəsində fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Məlumatların dezaqreqasiyası (606).

**508 İnformasiya cəmiyyəti və rəqəmsallaşma**

Rəqəmsal transformasiyanın və informasiya-kommunikasiya texnologiyalarının (İKT) istifadəsini və cəmiyyətə təsirini izləmək üçün statistika, göstəricilər və çərçivələr üzrə fəaliyyətləri əhatə edir. Bu mövzulara rəqəmsal cəmiyyətdə rifah da daxil olmaqla iqtisadi aspektlərdən daha geniş mənada baxılır. İnternetdən istifadə, internetin tətbiqi, informasiya və kommunikasiya texnologiyalarının ticarəti, kompüterdən istifadə, genişzolaqlı giriş, e-ticarət və s. üzrə fəaliyyətlər əhatə olunur.

İstisna edilir:

- Müəssisələr statistikası (Biznes statistikası) (202).

**509 Dairəvi iqtisadiyyat**

Bu alt sahə dairəvi iqtisadiyyata doğru irəliləyişə nəzarət etmək üçün göstəricilər üzrə statistik fəaliyyətləri əhatə edir (məsələn, Avropa Komissiyasının Dairəvi İqtisadiyyat Göstəriciləri, İƏİT-in Dairəvi İqtisadiyyat Göstəricilərinin İnventarizasiyası).

İstisna edilir:

- Müəssisələr statistikası (Biznes statistikası) (202);
- Ekoloji-iqtisadi uçot sistemi (20105);
- Ətraf mühit statistikası (3).

**510 Sosial və həmrəylik iqtisadiyyatı**

Könüllü əməkdaşlıq və qarşılıqlı yardım, demokratik və/və ya iştirakçı idarəetmə, muxtariyyət və müstəqillik, izafilərin və/və ya mənfəətin, habelə aktivlərin bölüşdürülməsində və istifadəsində insanların və sosial təyinatın kapitaldan üstünlüyü prinsiplərinə əsaslanan kollektiv və/və ya ümumi maraqlara xidmət etmək üçün iqtisadi, sosial və ekoloji fəaliyyətlə məşğul olan müəssisələrin, təşkilatların və digər qurumların sosial və həmrəylik iqtisadiyyatının monitorinqi üçün göstəricilər üzrə fəaliyyəti əhatə edir.

**599 Başqa sahələrdə təsnifləşdirilməyən sahələrarası statistika**

Yuxarıdakı 1-4-cü sahələrdə və ya sahələrarası statistikanın əvvəlki kateqoriyalarından hər hansı birində təsnif edilməyən statistik fəaliyyətləri əhatə edir. Yarana biləcək hər hansı siyasi ümumi (hərtərəfli) çərçivə üçün ehtiyat mövqe kimi çıxış edir.

## Sahə 6 – Statistik infrastruktur və metodologiya

**601 Metaməlumat**

Statistik məlumatların emalı və yayımlanması məqsədləri üçün statistik metaməlumatların işlənib hazırlanması, müəyyən edilməsi, uyğunlaşdırılması və standartlaşdırılması ilə bağlı fəaliyyətləri, eləcə də bu metaməlumatların istehsalı və yayımlanması proseslərinə aid modelləri, strukturları, çərçivələri və metaməlumat standartlarını əhatə edir. Statistik məqsədlər üçün yaradılmış metaməlumatlar inzibati məqsədlər kimi digər ehtiyaclar üçün də istifadə edilə bilər. SDMX (Statistik Məlumatların və Metaməlumatların Mübadiləsi), DDI

(Məlumatların Sənədləşdirilməsi Təşəbbüsü), GSIM (Statistik İnformasiyanın Ümumi Modeli) və s. standartları əhatə edir.

İstisna edilir:

- Təsnifatlar (602).

**602 Təsnifatlar**

Müxtəlif sahələrdə (iqtisadi, sosial, ətraf mühit, idarəetmə statistikası və s.) istifadə olunan statistik məqsədlər üçün təsnifatların hazırlanması, idarə edilməsi, saxlanması və uyğunlaşdırılması ilə bağlı fəaliyyətləri əhatə edir.

**603 Statistik reyestrlər**

*60301 Statistik biznes reyestrləri*

Statistik biznes reyestrlərin hazırlanması və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Kənd təsərrüfatı reyestrləri (60304);
- Müəssisə və kənd təsərrüfatı siyahıyaalmaları (60402).

*60302 Əhali reyestrləri*

Əhalinin statistik reyestrlərinin hazırlanması və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir. Bunlara rezident əhalinin tam və ya bir hissəsinin reyestrləri və immiqrantların reyestrləri kimi qeyri-rezident əhalinin reyestrləri daxildir. Həmçinin əhalinin vətəndaşlıq vəziyyəti aktlarının və təbii hərəkətinin reyestrlərini də ehtiva edir.

İstisna edilir:

- Reyestr əsaslı siyahıyaalmalar (60401);
- Yaşayış yerləri və tikililərin reyestrləri (60303).

*60303 Yaşayış yerləri və tikililərin reyestrləri*

Bütün yaşayış, qeyri-yaşayış binaları və yaşayış yerlərini, habelə infrastruktur elementlərini əhatə edən binaların, yaşayış yerlərinin və infrastrukturun statistik reyestrlərinin hazırlanması və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir.

*60304 Kənd təsərrüfatı reyestrləri*

Kənd təsərrüfatı reyestrlərinin hazırlanması və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir.

İstisna edilir:

- Statistik biznes reyestrləri (60301);
- Müəssisə və kənd təsərrüfatı siyahıyaalmaları (60402).

*60399 Başqa sahələrdə təsnifləşdirilməyən statistik reyestrlər*

Başqa yerdə təsnif edilməyən statistik reyestrlərin digər növləri ilə bağlı fəaliyyətləri əhatə edir

**604 Məlumat mənbələri**

Məlumatların toplanması və toplanmanın müəyyənləşdirilməsi, qiymətləndirilməsi, metodları və həyata keçirilməsi ilə bağlı statistik fəaliyyətləri əhatə edir. Siyahıyaalmalar, sorğular, inzibati məlumatlar və özəl sektorun məlumatları da daxil olmaqla digər məlumat mənbələrini əhatə edir.

*60401 Əhali və mənzil fondu siyahıyaalmaları*

Əhali və mənzil fondu siyahıyaalmalarının, o cümlədən reyestr əsaslı siyahıyaalmaların metodologiyası, təşkili və aparılması üzrə fəaliyyətləri əhatə edir.

*60402 Müəssisə və kənd təsərrüfatı siyahıyaalmaları*

İqtisadi və kənd təsərrüfatı siyahıyaalmalarının metodologiyası, təşkili və aparılması üzrə fəaliyyətləri əhatə edir.

*60403 Ev təsərrüfatlarının və fiziki şəxslərin müayinələri*

Ev təsərrüfatlarının və fiziki şəxslərin seçmə müayinələrinin metodologiyası, təşkili və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir. Bura seçmənin planı da daxil olmaqla Dünya Bankının keçirdiyi Yaşayış standartlarının ölçülməsi sorğusu və ya Ümumdünya Səhiyyə Təşkilatının keçirdiyi Ümumdünya səhiyyə (sağlamlıq) sorğusu kimi ev təsərrüfatlarından birbaşa məlumat toplayan beynəlxalq sorğular da daxildir.

*60404 Müəssisə və kənd təsərrüfatı müayinələri*

Müəssisə və kənd təsərrüfatı müayinələrinin, o cümlədən seçmə müayinələrin, habelə müəssisələrdən məlumatların birbaşa toplanması yolu ilə keçirilən beynəlxalq sorğuların metodologiyası, təşkili və aparılması ilə bağlı fəaliyyətləri əhatə edir.

*60405 İnzibati mənbələr*

Statistik məqsədlər üçün inzibati məlumatların uyğunluğunun müəyyənləşdirilməsi, metodoloji və texniki qiymətləndirilməsi və inzibati məlumatların toplanması ilə bağlı statistik fəaliyyətləri əhatə edir. Bura inzibati mənbələrə çıxışın hüquqi, təşkilati və konseptual məsələləri, siyahıyaalmalardan başqa digər kontekstlərdə reyestrlərdən və digər inzibati mənbələrdən istifadə üzrə fəaliyyətlər daxildir.

*60499 Başqa sahələrdə təsnifləşdirilməyən məlumat mənbələri*

Başqa yerdə göstərilməyən digər məlumat mənbələrinin müəyyən edilməsi və rəsmi statistika üçün uyğunluğu üzrə statistik fəaliyyətləri əhatə edir. Məsələn, şəxsi (özəl) mülkiyyətdə olan məlumatlar və qeyri-ənənəvi (məsələn, iri həcmli məlumatlar) məlumat mənbələri və s. Bu alt sahəyə bu məlumat mənbələrinə çıxışın hüquqi, təşkilati, texniki və konseptual məsələləri üzrə fəaliyyətlər daxildir.

**605 Məlumat mübadiləsi və məlumatların bölüşdürülməsi**

Məlumat mübadiləsi və məlumatların bölüşdürülməsi mexanizmlərinin işlənib hazırlanması, məxfiliyin qorunması və açıqlama üsullarının işlənib hazırlanması ilə bağlı fəaliyyətləri əhatə edir. Bura, həmçinin məlumat mübadiləsi üzrə infrastrukturun inkişafı da daxildir. Məlumat mübadiləsi və məlumatların bölüşdürülməsi ölkələrin müxtəlif qurumları, tədqiqat institutları, həmçinin beynəlxalq və regional təşkilatlarla həyata keçirilə bilər.

İstisna edilir:

- Metaməlumat (601);
- Məlumatların yayılması və kommunikasiyası (610).

**606 Məlumatların işlənməsi və təhlili**

Məlumatların inteqrasiyası, məlumatların təsnifləşdirilməsi və kodlaşdırılması, məlumatların yoxlanılması, məlumatların imputasiyası (şərti hesablanması) və

çəkisinin hesablanması, mövsümi düzəlişlər, kompozit (qarışıq) indekslərin qurulması üsulları, səbəb amillərinin müəyyən edilməsi, məlumatların dezaqreqasiyası və s. daxil olmaqla, emal və təhlil mərhələlərində məlumatların işlənməsi və təhlili ilə bağlı fəaliyyətləri əhatə edir.

**607 Məlumat elmi**

Yeni anlayışlar yaratmaq və qərar qəbulunu təkmilləşdirmək üçün rəqəmsal və məlumat dövrünün alətlərini, metodlarını və təcrübələrini tətbiq etməklə bağlı fəaliyyətləri əhatə edir. Süni intellekt, məlumatların intellektual təhlili (*data mining*), maşın öyrənməsi (*machine learning*), iri həcmli məlumatlar (*big data*) və s. daxildir.

İstisna edilir:

- Məlumatların işlənməsi və təhlili (606).

**608 Geoməkan məlumatları**

Geoməkan məlumatların statistik məqsədlər üçün istifadəsini və statistik və geoməkan məlumatların inteqrasiyasını asanlaşdırmaq üçün metodoloji və İT inkişafı ilə bağlı fəaliyyətləri əhatə edir. Bu fəaliyyət statistik biznes prosesin bütün mərhələlərini, xüsusən də məlumatların toplanması, işlənməsi, təhlili və yayılmasını əhatə edə bilər.

**609 Statistik konfidensiallıq və ilkin məlumatların mühafizə olunması**

Statistik məlumatların məxfiliyini təmin etmək üçün hüquqi, təşkilati və texniki tədbirlər üzrə fəaliyyətləri əhatə edir; ilkin statistik məlumatların aşkarlanmasının qorunması şərtilə mikroməlumatların yaılması üsulları.

İstisna edilir:

- Məlumat mübadiləsi və ilkin məlumatların bölüşdürülməsi (605).

**610 Məlumatların yayılması və kommunikasiya**

Tədqiqatçılar, akademik dairələr, dövlət siyasətini həyata keçirən siyasətçilər və sadə vətəndaşlar kimi istifadəçilər üçün məlumatların yayılması siyasəti, strategiyası, metodu və texnikası, məlumat anbarları, “məlumat gölləri” (“data lakes”) və virtuallaşdırılmış məlumatlar kimi çıxış məlumat bazalarının dizaynı və təşkili sahələrində fəaliyyətləri əhatə edir. Bu alt sahə, həmçinin istifadəçi rəylərini, məlumat və metaməlumatların təqdimatını, elektron yayımı (veb səhifə, sosial şəbəkələr vasitəsilə), statistik portallar və açıq məlumatları əhatə edir. Media subyektləri ilə ünsiyyət və Milli Statistika Qurumlarının (MSQ) mətbuat xidmətlərinin işi üzrə ən yaxşı təcrübələri ehtiva edir.

**699** **Başqa sahələrdə təsnifləşdirilməyən statistik infrastruktur və metodologiya**

Başqa sahələrdə təsnif olunmayan statistik infrastruktur və metodologiya sahəsində fəaliyyətləri əhatə edir. Bura ümumi statistik infrastruktur, statistik çərçivə və inteqrasiya daxildir.

## Sahə 7 – Strateji və idarəetmə fəaliyyətləri

Bu sahədəki statistik fəaliyyətlər Statistika Təşkilatları üçün Fəaliyyətin Ümumi Modeli ilə (GAMSO) uyğunlaşdırılmışdır. Bu sahəyə beynəlxalq səviyyədə statistikanın əlaqələndirilməsi üzrə fəaliyyətlər də daxildir.

**701** **İnstitusional struktur (çərçivə) və prinsiplər; rəsmi statistikanın rolu və təşkili**

Rəsmi statistikanın əsas prinsiplərini, normalar məcəlləsini, milli statistika sistemlərinin təşkilati və hüquqi aspektlərini, statistika sisteminin işlək vəziyyətdə saxlanılması kimi milli və beynəlxalq səviyyədə rəsmi statistikanın institusional strukturunun və prinsiplərinin işlənib hazırlanması, uyğunlaşdırılması və yenidən nəzərdən keçirilməsi üzrə fəaliyyətləri, həmçinin milli statistika idarələrinin təşkilini, etika, rəsmi statistikanın dəyəri və təşviqini, habelə milli statistika idarələrinin daha geniş məlumat ekosistemində artan rolunu, o cümlədən məlumatların idarə edilməsini əhatə edir. Bu qrup GAMSO-nun 1. Strategiya və liderlik (o cümlədən 1.1 Konsepsiyanın müəyyənləşdirilməsi və 1.2 İdarəetmə və rəhbərlik) və 3.1 Qanunvericiliklə bağlı məsələlərin idarə edilməsi kateqoriyalarına uyğundur.

**702** **Statistikanın milli səviyyədə əlaqələndirilməsi**

Milli statistika sistemləri daxilində koordinasiyanı, eləcə də ölkə daxilində digər məlumat istehsalçıları ilə strateji tərəfdaşlığı əhatə edir. İstifadəçilər və respondentlərlə əlaqələr, ümumi məlumat standartlarının və təsnifatların təşviqi və istifadəsi və s. daxil olmaqla, milli statistik proqramların hazırlanması proseslərini əhatə edir. Bu qrup GAMSO-nun 1.3 Strateji əməkdaşlığın və qarşılıqlı əlaqənin idarə edilməsi kateqoriyasına uyğundur.

İstisna edilir:

- Beynəlxalq səviyyədə statistik işlərin əlaqələndirilməsi (707).

**703 Keyfiyyətin idarə edilməsi**

Keyfiyyətin təmin edilməsinin əsas prinsiplərini və statistik sistemlərin və idarələrin işinin səmərəliliyinin qiymətləndirilməsi sahəsində fəaliyyətləri əhatə edir: keyfiyyətin təmin edilməsi sistemi və alətlərinin hazırlanması və tətbiqi, yəni təşkilati struktur, proseslər və məhsullarla bağlı keyfiyyəti əhatə etməli olan keyfiyyətin əsas prinsiplərinə uyğunluq, milli statistika sistemi daxilində və xaricində keyfiyyətin idarə edilməsinin təşviqi, inkişafı və monitorinqi. Bu alt sahəyə keyfiyyət göstəriciləri üzərində iş, istifadəçi sorğuları, özünüqiymətləndirmələr, keyfiyyətin monitorinqi və ya auditləri, statistikanın sertifikatlaşdırılması və ya etiketlənməsi daxildir. Keyfiyyət sənədləri burada təşkilati səviyyədədir və keyfiyyət bəyannamələrini, siyasətləri və səhvlərin (xətaların) və yenidən baxılmaların idarə edilməsinə dair qaydalar kimi müvafiq təlimatları əhatə edir.
Bu qrup GAMSO-nun 3.3 Keyfiyyətin idarə edilməsi kateqoriyasına uyğundur.

**704 İnsan resurslarının idarə edilməsi**

İşçilərin səriştələrinin (bacarıqlarının) müəyyən edilməsini, işə qəbulunu, bacarıqların inkişafını, kadr imkanlarının idarə edilməsini və ehtiyat kadrların formalaşdırılmasını əhatə edir.
Bu qrup GAMSO-nun 3.8 İnsan resurslarının idarə edilməsi kateqoriyasına uyğundur.

**705 İT-nin, informasiya və biliyin idarə edilməsi**

İnformasiya texnologiyalarının, informasiya və biliyin əlaqələndirilməsi (koordinasiyası) və idarə edilməsini əhatə edir. İT-nin idarə edilməsinə məlumatların və İT-nin, İT məhsul və xidmətlərinin fiziki təhlükəsizliyinin və texnoloji dəyişikliklərin idarə edilməsi daxildir. İnformasiya və biliyin idarə edilməsinə təşkilatda olan qeydlərə, sənədlərə, informasiyaya və digər intellektual aktivlərə sahiblik və ya onların saxlanılması, həmçinin informasiyanın toplanması, sistemləşdirilməsi, saxlanılması, mühafizəsi, yayılması, arxivləşdirilməsi və məhv edilməsinin idarə edilməsi daxildir. Bura, həmçinin informasiyanın idarə edilməsi və idarəetmə ilə bağlı siyasət, təlimat və standartların hazırlanması da daxil edilir.
Bu qrup GAMSO-nun 3.4 İnformasiya və biliyin idarə edilməsi və 3.9 İT-nin idarə edilməsi kateqoriyalarına uyğundur.

İstisna edilir:

- Məlumat mübadiləsi və məlumatların bölüşdürülməsi (605);
- Metaməlumat (601);
- Məlumat anbarı (609).

**706** **Digər resursların idarə edilməsi**

Maliyyənin, binaların və fiziki məkanın və təsnifatda başqa yerdə əhatə olunmayan hər hansı digər resursların idarə edilməsini əhatə edir. Maliyyənin idarə edilməsi, satınalma və müqavilələr də daxil olmaqla, fəaliyyətin səmərəliliyini və effektivliyini ölçmək, idarə etmək və proqnozlaşdırmaq üçün maliyyə və mühasibat məlumatlarından istifadəni əhatə edir. Binaların və fiziki məkanın idarə edilməsi binanın saxlanmasını və təşkilatın tutduğu fiziki yerin, o cümlədən iş sahəsinin ayrılmasını ehtiva edir.
Bu qrup GAMSO-nun 3.7 Maliyyənin idarə edilməsi və 3.10 Binaların və fiziki məkanların idarə edilməsi kateqoriyalarına uyğundur.

**707** **Beynəlxalq statistik əlaqələndirmə**

BMT-nin Statistika Komissiyası, Avropa Statistikləri Konfransı və Statistika Fəaliyyətlərinin Əlaqələndirmə Komitəsinin işi kimi beynəlxalq və üstmilli statistika təşkilatları arasında statistik fəaliyyətlərin əlaqələndirilməsini əhatə edir.

**708** **Potensialın inkişafı**

Potensialın inkişafı və texniki əməkdaşlıq, o cümlədən potensialın inkişafının əlaqələndirilməsi üzrə ümumi ikitərəfli və çoxtərəfli fəaliyyətləri əhatə edir. Bu qrup GAMSO-nun 2. Potensialın inkişafı kateqoriyasına aiddir, lakin daha genişdir. GAMSO statistik təşkilatın daxili perspektivinə diqqət yetirir, halbuki bu sahə əsasən müxtəlif donorlar (fondlar, ölkələr, beynəlxalq təşkilatlar və s.) tərəfindən təklif olunan potensialın inkişafı üzrə beynəlxalq yardımı əhatə edir.

İstisna edilir:

- Konkret sahələrdə potensialın inkişafı (digər sahələrdə müvafiq bölmələr üzrə verilmişdir).

**799** **Başqa sahələrdə təsnifləşdirilməyən strateji və idarəetmə fəaliyyətləri**

Yuxarıdakı sahələr altında təsnif edilə bilinməyən hər hansı strateji və idarəetmə fəaliyyətləri üçün qalıq kateqoriya.